# “AZFİNANCE İNVESTİSİYA ŞİRKƏTİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Uyğun hazırlanmış Konsolidə Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2017-ci il tarixində bitən il üzrə

## AZFİNANCE İNVESTİSİYA ŞİRKƏTİ QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsinə görə rəhbərliyin məsuliyyəti haqqında bəyanat | 1 |
| Müstəqil auditorların rəyi | 2-3 |
| Konsolidə edilmiş mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat | 4 |
| Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat | 5 |
| Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7 |
| Konsolidə edilmiş maliyyə hesabatları üzrə qeydlər | 8-30 |

## AZFİNANCE İNVESTİSİYA ŞİRKƏTİ QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİNƏ GÖRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA BƏYANAT

### 31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

Aşağıdakı bəyanat, 2 və 3-cü səhifələrdə göstərilmiş müstəqil auditorların rəyində auditorların vəzifələri haqqında müddəalarla birgə oxunmalıdır və "AzFinance İnvestisiya Şirkəti" QSC və onun törəmə müəssisəsinin (bundan sonra-Qrup) maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Qrupun 31 dekabr 2017-ci il tarixində bitən il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") əsasən müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərlik məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Qrupun normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Qrupun daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Qrupun maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2017-ci il tarixində bitən il üzrə maliyyə hesabatları Qrupun Rəhbərliyi tərəfindən 18 aprel 2018-ci ildə təsdiq edilmişdir.

**Rəhbərlik adından:**

| | |
|---|---|
| **Cənab Abid Mamedov**<br>**Direktor** | **Xanım Xuraman Zülalova**<br>**Baş Mühasib** |
| 18 aprel 2018-ci il<br>Azərbaycan Respublikası, Bakı | 18 aprel 2018-ci il<br>Azərbaycan Respublikası, Bakı |